Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Jalə Qulamova

# Məmmədağa Umudov



Bakı – 2019

**Jalə Qulamova. Məmmədağa Umudov.**
Bakı, "Renessans-A" Nəşriyyat Evi, 2019, 32 səh .

ISBN 978-9952-21-078-1

© Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi, 2019

# Məmmədağa Umudovun yaradıcılıq yolu

Xalq mənəviyyatının, ruhi dünyasının açıqlanmasına həsr olunan ömür təqdirəlayiqdir. Hər hansı xalqı dərindən tanımaq, öyrənmək, duymaq üçün onun mədəni inkişafı naminə görülən iş onun əziyyətini çəkən şəxsiyyətin məqsədi, düşüncələri, arzuları ilə möhkəm bağlı olur. XX əsr Azərbaycan musiqisi öz inkişafında bir sıra vacib mərhələlər keçmişdir. Bir nəslin bəstəkarları özündən əvvəlki onilliyin nailiyyətlərindən bəhrələnərək ən müxtəlif janrlarda işləmiş, musiqi yaradıcılığının yeni-yeni sahələrinə çox sürətlə müdaxilə etmişlər. Ən vacibi isə odur ki, onlardan hər biri öz dəstxəttini və üslublarını yaradaraq Azərbaycan musiqi sənətinin hüdudlarını daha da genişləndirmişlər.

Bu gün haqqında söhbət açdığımız görkəmli simalardan biri Azərbaycan Milli Konservatoriyasının müəllimi, Əməkdar incəsənət xadimi, professor Məmmədağa Umudovdur. Yaradıcılığa əsasən simfonik, eləcə də kamera musiqisi sahəsində başlayan istedadlı bəstəkarın maraq dairəsinin genişliyi, bu günün tələblərinə cavab vermək səyi onun həm tarixi keçmişimizin, həm də müasir dövrümüzün ən müxtəlif mövzularına, obrazlarına müraciət etməsi böyük maraq doğurur.

Ötən əsrin 70-ci illərindən müstəqil yaradıcılıq yoluna qədəm qoyan bəstəkar musiqinin müxtəlif janrlarında əsərlər yazmışdır. O, 3 simfoniya, “Qobustan” simfonik poeması, Simli kvartet, “Gənclik” uverturası,

fortepiano üçün prelüdlər və sonatina, tar ilə simfonik orkestr üçün "Konsert", violin və simfonik orkestr üçün "Konsert", solo violin üçün "Sonata", "Balet süitası", xor və simfonik orkestr üçün "Cümhuriyyət marşı", "Çahargah" muğam simfoniyası və s. əsərlərin müəllifidir.

Məmmədağa Umudov 1949-cu ildə Bakının qədim kəndlərindən biri olan Əmircanda dünyaya göz açmışdır. Hələ kiçik yaşlarında atası onu kənddəki mədəniyyət sarayında olan tar dərnəyinə yazdırmışdır. Orada ilk musiqi müəllimi Sabir Ramazanov olmuşdur. 1964-cü ildə Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə (indiki musiqi kolleci) qəbul olan Məmmədağa burada tar ifaçılığı sənətinin dərinliklərinə ixtisas müəllimi Akif Novruzovun, eləcə də muğam müəllimi Kamil Əhmədovun sayəsində yiyələnir. Hər iki müəllim tar ifaçılığı üzrə o dövrün ən peşəkar müəllimlərindən hesab olunurdu.

Məmmədağa Umudov ali musiqi təhsilini iki ixtisas üzrə almışdır. Belə ki, 1968-ci ildə Asəf Zeynallı adına musiqi texnikumunu bitirib Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) ifaçılıq fakültəsinin tar ixtisası üzrə təhsilini davam etdirmişdir. 1973-cü ildə tar ixtisası diplomunu alıb həmin il yenə də Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinin 2-ci kursuna tanınmış bəstəkar, Xalq artisti, professor Cövdət Hacıyevin sinfinə daxil olmuşdur. Bu, onun musiqi həyatında yeni bir mərhələnin başlanğıcı olur. "Yaxşı bəstəkar və pedaqoqun sinfində təhsil almaq musiqiçinin ən böyük şansıdır. Bu sahədə mən də özümü şanslı hesab edə bilərəm".

Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında misilsiz xidmətləri olmuş Cövdət Hacıyevi o zaman musiqiçilər “canlı ensiklopediya” adlandırırdılar. Mən də belə bir görkəmli sənətkardan dərs aldığım üçün özümü həmişə çox xoşbəxt hiss etmişəm”.

Məmmədağa Umudovun musiqisi milli musiqimiz ilə sıx bağlıdır. Azərbaycan xalq və şifahi ənənəli professional musiqisinə xas olan cəhətlər onun yaradıcılığının elə ilk mərhələsində yaranan əsərlərdə təzahür tapmışdır. Konservatoriyada təhsil aldığı illərdə yazdığı əsərlərdə artıq bəstəkarın yaradıcılıq dəstxətti üçün səciyyəvi cəhətlər özünü göstərməyə başlayır.

Tələbəlik illərinin ilk yaradıcılıq axtarışları nəticəsində kamera instrumental janrda bir sıra əsərlər, o cümlədən “12 prelüd”, “Fortepiano triosu”, fortepiano üçün prelüdlər, fortepiano üçün pyeslər, sonatina, variasiyalar, simli kvartet və s. yazır. Bəstəkarın üslubunun müəyyənləşməsi yolunda ilk addım olan bu əsərlərdə həm milli musiqi qaynaqlarının, həm də müasir cərəyanların təsiri duyulur. Təsadüfi deyil ki, məhz həmin illərin məhsulu olan “Simli kvartet” ilk dəfə 1978-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan İncəsənəti Dekadasında böyük müvəffəqiyyətlə səslənmişdir.

1977-ci ildə I simfoniyasını diplom işi kimi təqdim edərək konservatoriyanın bəstəkarlıq fakültəsini müvəffəqiyyətlə bitirir. Artıq bu əsərdə bəstəkarın yüksək peşəkarlıq qabiliyyəti özünü aydın büruzə verir. 1978-ci ildə həmin simfoniya Azərbaycan Dövlət Televiziyasında (Az TV) Xalq artisti, professor Ramiz Məlikaslanovun dirijorluğu ilə canlı səslənib və sonradan lentə yazılmışdır.

Hələ tələbəlik illərindən bir sıra dünya şöhrətli bəstəkar və musiqiçilərlə ünsiyyətdə olması, xüsusilə də Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Arif Məlikov, Tofiq Quliyev və Aqşin Əlizadə kimi məhşur bəstəkarlarla tanışlıq onun yaradıcılığında önəmli rol oynamışdır.

Konservatoriyanı bitirdikdən sonra bəstəkar müxtəlif musiqi janrlarına müraciət edərək öz yaradıcılıq axtarışlarını davam etdirir. Müxtəlif janr və formaları geniş əhatə edən, ciddi musiqinin simfoniya, konsert, sonata, uvertüra, kvartet və sair əsərləri artıq neçə illərdir ki, musiqidə öz tutarlı sözünü deyə bilmişdir. Belə ki, 1980-ci illərdə "Gənclik" uvertürası (1980), "Xoreoqrafik simfoniya" (1983), fortepiano triosu (1987), Tar ilə simfonik orkestr üçün "Konsert" (1984) və digər onlarla əsərlər yazmışdır.

Özünəməxsus orijinal üslubu və bir sıra maraq doğuran, yeni ifadə vasitələri ilə seçilən "Tar ilə simfonik orkestr üçün Konsert"də milli alət olan tarın bədii-texniki imkanlarını simfonik orkestrin ifadə vasitələri ilə birləşdirən bəstəkar bu alətə xas olan üslublara gözəl bələd olduğunu nümayiş etdirmişdir. Özündən əvvəlki və onunla paralel surətdə yaranan konsertlərin heç birini təkrarlamayan bu əsərdə xalq musiqisinə, muğamlara həssalıqla yanaşma özünü büruzə verir. Görkəmli tarzən Ramiz Quliyevə ithaf olunan əsər ilk dəfə 1985-ci ildə Bəstəkarlar İttifaqının VI qurultayında Ramiz Quliyevin öz ifasında dirijor Ramiz Məlikaslanovun rəhbərliyi ilə ifa olunmuşdur. Növbəti ifa 2011-ci ildə II Beynəlxalq Muğam Festivalı çərçivəsində Azərbaycan Dövlət Filarmoniyasında Əməkdar incəsənət xadimi Fəxrəddin Kərimovun di-

rijorluğu ilə solist Əməkdar artist Sahib Paşazadənin ifasında böyük alqışlarla qarşılanmışdır.

1990-cı illərdə yazdığı əsərlər sırasında solo violin üçün "Sonata" (1992) ilk dəfə 1994-cü ildə Azərbaycan Dövlət Filarmoniyasında solist Xalq artisti, professor Sərvər Qəniyevin, "Düşüncələr" adlı simli orkestr üçün simfoniyası 2007-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının qurultayında Orqan və Kamera Musiqi Zalında Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və orkestrin bədii rəhbəri, Xalq artisti Teymur Göyçayevin dirijorluğu ilə müvəffəqiyyətlə səslənmişdir.

Böyük simfonik orkestr üçün yazılmış növbəti III simfoniyası da bəstəkarın iri həcmli əsərləri sırasında özünəməxsus yer tutur.

Eləcə də "Qobustan" simfonik poeması (2012), Violin və simfonik orkestr üçün "Konsert" (2014), "Balet süitası" (2014), "Konsert pyesi" (2015) kimi əsərləri bəstəkarın yaradıcılığının çoxşaxəliyindən xəbər verir. Qeyd edək ki, ilk dəfə "Qobustan" simfonik poeması 2012-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının qurultayında Bakı Musiqi Akademiyasının böyük zalında Əməkdar incəsənət xadimi, Niyazi adına Simfonik Orkestrin baş dirijoru Azad Əliyevin, "Balet süitası" 2014-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının 80 illiyi münasibətilə keçirilən silsilə tədbirdə Azərbaycan Dövlət Filarmoniyasında Beynəlxalq müsabiqələr laureatı Əyyub Quliyevin; "Konsert pyesi" 2015-ci ildə Orqan və Kamera Musiqi Zalında Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və orkestrin bədii rəhbəri, Xalq artisti Teymur Göyçayevin dirijorluğu ilə səsləndirilmişdir.

Son illərdə yazdığı əsərlərdən "Qələbəyə doğru" 2 marşı və "Çahargah" Muğam simfoniyasını göstərə bilərik. "Çahargah" Muğam simfoniyası son əsərləri sırasında xüsusilə fərqlənir. Bildiyimiz kimi, simfonik muğam janrının ilk yaradıcısı dahi bəstəkarımız Fikrət Əmirovdur. Ondan sonra Niyazi, Süleman Ələsgərov, Vasif Adıgözəlov və digər bəstəkarlar bu sahədə öz qələmlərini sınayıblar. Məmmədağa Umudov da bu janra bir qədər fərqli müraciət edərək özünəməxsus musiqi dili olan orijinal bir əsər yaratmışdır. Simfonik orkestr və solistlər: xanəndə, tar, balaban, zurna və bədii qiraətçi üçün yazılmış bu əsərdə Xalq şairi B.Vahabzadəninn "Muğam" poemasından istifadə etməklə bəstəkar yeni bədii ifadə vasitələri yaratmağa çalışmışdır.

Eyni zamanda Fortepiano üçün 7 pyes və 2 marş; fortepiano üçün 9 prelüd; sözləri Vüqar Əhmədə məxsus "Fortepiano və xor üçün "Cumhuriyyət marşı", xor üçün "Sülhdür məramımız"əsəri də onun son illərdəki yaradıcılığının məhsuludur.

Qeyd edək ki, musiqisi Məmmədağa Umudova, sözləri nəğməkar şair Vüqar Əhmədə məxsus olan "Cümhuriyyət marşı" Cümhuriyyətimizin 100-cü ildönümü münasibətilə ərsəyə gətirilib.

Bəstəkarın müxtəlif konsert salonlarında müəllif konsertləri də keçirilir. Bunlardan 16 noyabr 2016-cı ildə Azərbaycan Milli Konservatoriyasında keçirilən tədbiri, eləcə də 14 mart 2017-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqında baş tutan müəllif konserti və "Alətşünaslıq" kitabının təqdimat mərasimi, 6 mart 2019-cu ildə Niyazinin ev-muzeyində keçirilən tədbirləri qeyd edə bilərik. Bəstəkarlar İttifaqında müəllifin "Düşüncələr"

– Simli orkestr üçün Simfoniyasının video təqdimatı ilə başlanılan tədbirdə Xalq artisti Teymur Göyçayevin bədii rəhbər və dirijorluğu ilə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera orkestrinin ifasında təqdim edilən musiqi əsəri böyük maraqla qarşılanmışdır.

Tədbirdə Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə, musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamova və sənətşünaslıq elmləri doktoru, professor Abbasqulu Nəcəfzadə çıxış edərək Məmmədağa Umudovun həyat və yaradıcılığından danışmış, yeni dərs vəsaiti ilə bağlı fikirlərini bölüşmüşlər.

Sonra müəllifin musiqi əsərlərindən ibarət konsert proqramı təqdim edilmişdir.

Beləliklə, Məmmədağa Umudovun musiqisini həmişə ciddi ideyalarına, məzmununa, təcəssüm olunan mövzu və obrazların əhəmiyyətinə görə tanımaq olur. Mühüm fikirləri, dərin, ciddi hissləri bəstəkar həmişə aydın, dəqiq və inandırıcı ifadə edir. O, elə bəstəkarlardandır ki, müasir bəstəkarlıq texnikası ehtiyatlarından geniş şəkildə, ustalıqla istifadə edərək bu vasitələri öz milli musiqi sənətinə tətbiq edir. Məhz bu keyfiyyətlərinə görə bir çox görkəmli musqiçilər – Xalq artistləri, dirijorlar Rauf Abdullayev, Ramiz Məlikaslanov, Teymur Göyçayev, Fəxrəddin Kərimov, Ağaverdi Paşayev, tarzən Ramiz Quliyev, Əməkdar incəsənət xadimi, dirijor Azad Əliyev, Əməkdar artistlər, dirijor Eyyub Quliyev, tarzən Sahib Paşazadə, prezident təqaüdçüsü, violin ifaçısı Cəmilə Qarayusifli və başqaları müxtəlif vaxtlarda onun yaradıcılığına müraciət etmişlər.

O həmçinin fəal ictimai xadimdir. 1978-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan bəstəkar

bu yaradıcılıq təşkilatının işində fəal iştirak edərək, bir çox plenum, qurultay və festivallarda öz yeni əsərləri ilə çıxış edir və həm də o, Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvüdür. Onun əməyi yüksək qiymətləndirilərək 2007-ci ildə Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

Bu gün yaradıcılığının kamillik dövrünü yaşayan bəstəkar yüksək peşəkarlıq prinsiplərinə sadiq qalaraq milli musiqi mədəniyyətimizin tərəqqisi naminə yorulmadan çalışır.

Məmmədağa Umudov həm də gözəl ailə başçısı, atadır. Qızları musiqi ilə yox, şahmatla məşğul olurlar və Azərbaycanı dünya ölkələrində uğurla təmsil edirlər. Böyük qızı Ülkər Umudova şahmat üzrə FİDE tərəfindən beynəlxalq dərəcəli hakim dərəcəsinə layiq görülən ilk azərbaycanlı qadındır. Dünya, Avropa çempionlarında və şahmat olimpiadalarında Azərbaycanı uğurla təmsil edir. Digər qızı şahmat üzrə beynəlxalq qrosmeyster Nərgiz isə 2006-cı ildən Azərbaycanın qadınlardan ibarət milli şahmat yığmasının üzvüdür. 2006-cı ildə gənclər arasında keçirilən dünya çempionatının gümüş medalçısıdır. Avropa, Asiya, Afrika, Amerika qitəsinin bir çox ölkələrində Vətənimizi layiqincə təmsil edir. 2014-cü ilin mart ayında Avstriyanın Vyana şəhərində keçirilən beynəlxalq turnirin qalibi olub. Qızlarının uğuru bir ata kimi Məmmədağa müəllimi də çox sevindirir. Biz bu şərəfli peşə sahələrində çalışan ailəyə gələcəkdə daha böyük uğurlar diləyirik.

## Tar ilə simfonik orkestr üçün "Konsert"

Qeyd etdiyimiz kimi uşaqlıqdan xalq musiqisinə, xüsusən tara bağlı olan sənətkar bu alət üçün bir sıra maraqlı əsərlərin müəllifidir. Əslində bu bağlılıq hər bir azərbaycanlının qanında, canındadır.

"Tar aləti Azərbaycan xalqının mənəvi və mədəni tarixidir. Hansı musiqi janrında yazırsan yaz, yenə də öz musiqi kökünə gəlib çıxırsan. Bu hal təkcə bizdə yox, bütün dünya xalqlarında belədir. Sadəcə bizim xalq musiqimiz, xüsusilə muğamlarımız çox gözəl və təkmildir. Muğam elə bir möcüzədir ki, o daim inkişaf edir, dəyişir. Nota alınmış musiqilər illər ötsə də olduğu kimi səslənməyə məcburdur. Muğamda isə hər gələn nəsil muğama öz yeni naxışlarını vurur. Mən özümü xalq musiqisinin ifaçısı hesab edirəm, həmişə həsəd apardığım, ideal sandığım yalnız Azərbaycan xalq musiqisi olub" deyən bəstəkar onu da qeyd edir ki, simfonik musiqi sahəsində çalışan bir çox bəstəkarların əvvəli ya tarçalan olub, ya da xalq musiqiçilərinin ailəsindən çıxıb. Məhz bu fikirlər onun "Tar ilə simfonik orkestr üçün konsert"inin yaranmasına təkan verən amil olub desək, yanılmarıq.

Xatırladaq ki, Azərbaycan peşəkar musiqisi tarixində, hər biri uğurlu sənət hadisəsi olan müxtəlif bəstəkarların tar ilə simfonik orkestr üçün konsertləri (H.Xanməmmədov, S.Rüstəmov, C.Cahangirov, S.Ələsgərov, T.Bakıxanov, R.Mirişli, M.Umudov və s.) özünəməxsus iz buraxmışdır. Tar ilə simfonik orkestr üçün konsertlərin yaradılmasının ilk mərhələsində Hacı Xanməmmədov bu mürəkkəb instrumental janrın yeni növünü – xalq çalğı aləti olan tar və simfonik orkestr üçün konsert janrının bünövrəsini qoymuşdur. Bu konsertləri yaratmaqla o, nəinki bəstəkarlar, habelə ifaçılar qarşısında da yeni tələblər irəli sürmüşdür.

1980-90-cı illərin konsertləri sırasında yaşlı və orta nəsli təmsil edən nümayəndələrin yaradıcılığı ilə yanaşı, yeni nəslin nümayəndəsi Məmmədağa Umudovun da "Tar ilə simfonik orkestr üçün konsert"i özünəməxsus dəstxətti  və üslubu ilə fərqlənir. 1984-cü ildə yazılmış bu əsər Azərbaycan tar konsertləri silsiləsində daha qabarıq nəzərə çarpan bir xüsusiyyəti – müasir musiqi dili ilə seçilir. Eyni zamanda müasir intonasiya elementləri, yeni ahəngli harmoniyalar, orkestr çalarları və faktura, silsilənin fərqli şərhi ilə diqqəti cəlb edir.

Bəstəkar öz yaradıcılığında konsert janrından məharətlə istifadə etmişdir. Özü gözəl tarzən olan Məmmədağa müəllim əsərində xalq musiqisinin xüsusiyyətlərini səmərəli şəkildə tətbiq etmişdir. Belə ki, görkəmli tarzən, ustad sənətkarlar Akif Novruzov və Kamil Əhmədov kimi müəllimlərin sinfində  not və muğam sirrlərinə, görkəmli bəstəkar Cövdət Hacıyevin sinfində isə bəstəkarlıq texnikasının müxtəlif sirrlərinə

yiyələnmək Məmmədağa Umudovun tar konsertinin ərsəyə gəlməsində bir zəmin olmuşdur.

Məmmədağa Umudov konserti yazarkən onun qarşısında əvvəlki illərin çoxsaylı nümunələri var idi. Lakin, təbii ki, 70-80-ci illərdə Azərbaycan musiqisində nəzərə çarpan üslub yeniləşməsi konsert janrında da öz izini qoymuşdu. Dövrün irəli sürdüyü bədii məsələlərlə əlaqədar, ifadə vasitələri yeniləşir, musiqi dili təkamülə uğrayır. Buna uyğun forma quruluşunda da bir sıra dəyişikliklər baş verir. Məmmədağa Umudovun "Tar ilə simfonik orkestr üçün konsert"ində də məhz bu yeniliklər müşahidə edilir. Konserti fərqləndirən başlıca cəhət onun həm də özünəməxsus musiqi dilidir. Bu, melodikada, harmonik üslubda, başlıcası isə orkestr partiturasında və fakturada özünü büruzə verir. Bəstəkar özü bu haqda deyir: "Sadəcə qarşıma məqsəd qoymuşdum ki, sırf Avropa janrı olan "Konsert" janrında texniki və bədii imkanları çox geniş olan tar ilə simfonik orkestr üçün tam həcmli bir əsər yaradım".Müasirliklə yanaşı həm də milli qaynaqlara istinad etmə bu konsertin daha qabarıq bir xüsusiyyətidir. Bəstəkar solist və orkestr arasında münasibəti fərqli baxımdan şərh etmiş, forma sahəsində, orkestrləşdirmədə yeni axtarışlar aparmışdır. Belə ki, solistin partiyasının orkestrlə bərabərhüquqlu olmasıdır. Eyni zamanda bu konsertdə orkestr partiyasının inkişaflı olması onu konsert-simfoniyaya  yaxınlaşdırır. Ağac nəfəsli və zərb alətlərinin, arfanın, solo violinin bir-biri ilə və ya tar ilə dialoqu konsertə spesifik  çalarlar verir, xüsusi kolorit yaradır. Əvvəlki konsertlərdə daha çox müşahidə etdiyimiz janr

başlanğıcı bu əsərdə arxa plana keçir. Milli musiqiyə bağlılıq əsərdə muğamdan geniş istifadəyə gətirib çıxarır. Onu da qeyd edim ki, konsertdə muğam eşidilsə də, sitat kimi istifadə olunmamışdır. Bu, Cövdət Hacıyev məktəbinin ənənəsindən irəli gəlir. Eyni zamanda dolğun, qüvvətli səs palitrası ilə yanaşı, yumşaq boyalardan həssaslıqla istifadə olunması, muğam texnikasının virtuoz şəkildə tətbiqi, xalq çalğı üslubuna xas olan bir sıra üsullardan istifadə edilməsi bu konsertin səciyyəvi xüsusiyyətidir.

Muğama xas olan fazalı inkişaf I hissədə əsas mövzunun quruluşunda müəyyənedici rol oynayır. Konsertin I hissəsində "Çoban-bayatı" intonasiyalarına üstünlük verilir. Qeyd edək ki, Cövdət Hacıyevin simfoniyalarında da bu, bəstəkarın çox sevdiyi intonasiyalardandır.

Konsertin kadensiyası da özünəməxsusluğu ilə seçilir. Bu virtuoz kadensiyada notasiya ölçüsüz verilir. Muğam ruhu konsertin II hissəsində də hakimdir.

Konsertdə silsilənin quruluşu da özünəməxsusdur. II hissə fasiləsiz III hissəyə keçir, tonal plan isə "in C" kimi şərh olunur. Əsərin sonunda isə bir neçə takt solistin öz ixtiyarına verilir ki, bu da muğamda olduğu kimi solistə daha çox yaradıcılıq imkanı yaradır. Konsert qeyri-adi və orijinal bir tərzdə – Adajio ilə bitir, sanki birdən-birə sönür və bəstəkar dinləyici qarşısında belə bir sual qoyur: "Bəs sonra?".

Son illərdə bəstəkar bu konserti violin üçün işləyərək daha bir yeniliyə imza atmışdır. Bu haqda bəstəkar belə deyir: "Biz uzun illər dünya klassik

bəstəkarlarının əsərlərini tar üçün köçürərək ifa etmişik. Amma məni bir sual həmişə düşündürürdü ki, görəsən, bizim milli alətlər üçün yazılan orijinal əsərlər hər hansı Avropa alətinə köçürərək ifa edilsə, necə olar? Düşünürdüm ki, görəsən, nə vaxtsa violin ifaçıları tarın repertuarına müraciət edəcəklərmi? Tar konsertimi Bakı Musiqi Akademiyasının professoru Zəhra Quliyevaya göstərib fikrimi bildirəndə o, "II və III hissələrə bir qədər düzəliş etsən, alınar" deyə müsbət rəy verdi. Bu sözlərdən ilhamlanaraq əsər üzərində yenidən işlədim və xaricdə təhsil alan istedadlı violin ifaçısı Cəmilə Qarayusifliyə təqdim etdim. Əsər ilk dəfə 2014-cü ilin fevral ayında Azərbaycan Dövlət Fiarmoniyasında tanınmış dirijor, Xalq artisti. professor Rauf Abdullayevin rəhbərliyi ilə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin ifasında böyük müvəffəqiyyətlə səsləndi.. Beləcə, mənim arzum reallaşdı".

Beləliklə, bu gün konsert janrının keçdiyi yola bir daha nəzər saldıqda görmək olur ki, hər nəslə mənsub olan bəstəkarlar bu janrı öz baxımından şərh etmiş, öz yaradıcılıq üslubuna xas olan xüsusiyyətləri gətirmişdir. Xalqımızın milli sərvəti olan tar ifaçılığını daha da inkişaf etdirmək, bu alət üçün orujinal və maraqlı əsərlər yaratmaq bu gün bəstəkar və ifaçıların qarşısında duran mühüm vəzifələrdən biridir.

## Məmmədağa Umudovun pedaqoji fəaliyyəti

Müəllimlik də bəstəkarlıq kimi Məmmədağa Umudovun həyatının bir parçası, uzun illər boyu verdiyi ən sevimli fəaliyyət sahəsidir. O, təcrübəli, tədris prosesinin bütün incəliklərinə fikir verən, tələbkar, həm də xoş xasiyyətli bir müəllimdir. Tələbə olduğu illərdə ustadlarından aldığı dərslər zamanı onların müəllimliyini də müşahidə etmiş və mənimsəmişdir. O, özünün pedaqoji fəaliyyətində bir çox pedaqoqların müəllimlik prinsipləri ilə hərəkət etmiş, onların müəllimlik tərbiyəsinə işi və əməli ilə sədaqətli olmuş, müəllimliyin istər yüksək mənəvi, istərsə də yüksək təlim-tərbiyə prinsiplərinə layiq səviyyədə fəaliyyət göstərmişdir.

O, öz tələbələrini həm səviyyəli peşəkar bəstəkar, həm bəstəkarlığın mənəvi prinsiplərinə əməl edən şəxsiyyət, həm də milli musiqimizin inkişafına sədaqətlə qulluq edən vətəndaş kimi tərbiyə edir. Eyni zamanda Məmmədağa müəllim öz yetirmələrinə böyük tələbkarlıqla yanaşaraq onlara qayğı göstərir, öz bacarığı, diqqəti və həssaslığı ilə tələbələrin rəğbətini qazanır. Tələbələri arasında istedadlı tələbələr də az deyil. Ha-

zırda onun yetirmələri respublikanın müxtəlif musiqi müəssisələrində çalışaraq musiqi mədəniyyətimizin inkişafına öz töhfələrini verirlər.

Pedaqoji fəaliyyətinə Bakı Kitabxanaçılıq Texnikumunda başlayan Məmmədağa Umudov 1968-77-ci illərdə bu texnikumda, 1977-2005-ci illərdə isə A.Zeynallı adına Bakı Musiqi kollecində, eyni vaxtda, yəni 1978-1988-ci illərdə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası)  müəllim kimi çalışmışdır. 2005-ci ildən bu günə kimi Azərbaycan Milli Konservatoriyasında professor vəzifəsində pedaqoji fəaliyyətini davam etdirir. Öz işinə böyük məsuliyyətlə yanaşan təcrübəli pedaqoq və səmimi insan olan Məmmədağa müəllim Milli Konservatoriyanın professor və müəllim heyətinin dərin hörmətini qazanmışdır.

O, yüksək əxlaqi dəyərlərə malik olan peşəkar müəllim kimi bütün bilik və bacarığını gənc musiqiçi kadrların hazırlanması işinə yönəltmişdir və bu işdə də böyük nailiyyətlər əldə etmişdir.

Məmmədağa müəllim tədris prosesinin inkişafı naminə müəllif və tərtibçi kimi bir neçə metodik tövsiyələr, köçürmələr, yeni proqramlar üzərində işləyərək onları nəşr etdirmişdir.

Tədris etdiyi fənn bəstəkarlığın tərkib hissəsini təşkil edir. Azərbaycan Milli Konservatoriyasında "Alətşünaslıq" fənnindən dərs deyir. Eyniadlı dərsliyin və dərs vəsaitinin müəllifidir. "Tövsiyələr" adlı dərs

vəsaiti eyniadlı dərsliyin çox qısa və yığcam variantıdır ki, bu da bir çox həmkarlarının stolüstü yaddaş kitabçasına çevrilmişdir.

Musiqi alətlərinin harmoniyasında rəngarəng musiqi tablosu yaradan M.Umudovun "Alətşünaslıq" dərsliyi musiqi təmayüllü ali və orta ixtisas məktəbləri üçün Azərbaycan xalq çalğı və simfonik alətlər üzrə dərslikdir. Bu dərslik müasir dövrdə ölkəmizdə bu və ya digər formada istifadə edilən musiqi alətlərinin tarixi, quruluşu, səslənməsi və ifa üslubları haqqında biliklərin tələbələrə çatdırılmasında dəyərli mənbə olacaq.

Dərslik bir çox musiqi təmayüllü ali və orta ixtisas təhsil müəssisələrində tədris vəsaiti kimi istifadə edilir.

Beləliklə, biz əminik ki, yaradıcılıq həvəsi ilə bədii təcrübənin sıx vəhdəti hələ neçə-neçə gözəl sənət əsərləri meydana gətirəcək, Azərbaycan musiqisinin pərəstişkarlarını daha da sevindirəcəkdir. Biz bəstəkara bu şərəfli yolda uğurlar arzulayırıq.

## Bəstəkar Məmmədağa Umudovun səslənmiş və ya çap olunmuş əsərlərinin siyahısı

1. "12 prelüd", "fortepianono triosu" – 1973-75.

2. Simli kvartet – 1975. İlk dəfə 1978-ci ildə Moskvadə Azərbaycan İncəsənəti Dekadasında ifa olunmuşdur.

3. Fortepiano üçün prelüdlər və Sonatina – 1974-75.

4. I simfoniya -1977. İlk ifa AzTV-də. Dirijor Ramiz Məlikaslanov.

5. "Gənclik" uverturası – 1980 ilk ifa AzTV. Dirijor Əli Cavanşir.

6. Tar ilə simfonik orkestr üçün Konsert – 1984. İlk ifa 1985-ci il Bəstəkarlar İttifaqının VI qurultayında R.Quliyevin ifasında. Dirijor R.Məlikaslanov.

7. "Xoreoqrafik simfoniya" – 1983 (II simfoniya).

8. Fortepiano triosu – 1987.

9. Solo violin üçün “Sonata” – 1992. İlk ifa 1994-cü ildə Azərbaycan Dövlət Filarmoniyasında. Solist Xalq artisti, professor Sərvər Qəniyev.

10.“Düşüncələr” adlı simli orkestr üçün üçün III simfoniya – 2005. İlk ifa 2007-ci ildə Azərbaycan Bəstəkarlar İttifaqının qurultayı çərçivəsində Orqan və Kamera Musiqi Zalında. Dirijor Xalq artisti T.Göyçayev.

11. Tar ilə simfonik orkestr üçün konsert 2011-ci ildə II Beynəlxalq Muğam Festivalı çərçivəsində Müslüm Maqomayev adına Bakı Filarmoniyasında dirijor Fəxrəddin Kərimov və solist Sahib Paşazadənin ifasında.

12.“Qobustan” simfonik poeması – 2012. İlk ifa ABİ-nin qurultayında BMA-nın boyük zalında Əməkdar incəsənət xadimi, Niyazi adına simfonik orkestrin baş dirijoru Azad Əliyev.

13. Violin və simfonik orkestr üçün “Konsert” – 2014. İlk ifa Azərbaycan Dövlət Filarmoniyasında. Dirijor Xalq artisri, professor Rauf Abdullayev. Solist prezident təqaüdçüsü Cəmilə Qarayusifli (İsveçrə).

14.“Balet süitası” – 2014. İlk ifa ABİ-nin 80 illiyində Azərbaycan Dövlət Filarmoniyasında Ə.Quliyevin dirijorluğu ilə.

15. “Konsert pyesi” – 2015. İlk ifa Orqan və Kamera Musiqi Zalında. Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin ifasında. Dirijor T.Göyçayev.

16.“Çahargah” muğam simfoniyası – 2014. (Solistlər: xanəndə, tar, balaban və bədii qiraətçi. Xalq şairi B.Vahabzadənin “Muğam” poemasından istifadə edilmişdir).

17.“Qələbəyə dogru” – 2 marş. Bakı, “Ecoprint”, 2015.

18.Fortepiano üçün 7 pyes və 2 marş. Bakı, “Ecoprint”, 2017, 64 səh.

19. Fortepiano üçün 9 prelüd. Bakı, “Ecoprint”, 2017, 48 səh.

20.“Cümhuriyyət marşı”. Fortepiano və xor üçün. (Sözləri Vüqar Əhmədindir. Bakı, “Ecoprint”, 2018, 30 səh.

21. Violin və orkestr üçün Konsert. Klavir. Bakı, “Ecoprint”, 2018, 56 səh.

## Məmmədağa Umudovun məqalələri

1. İlin maraqlı hadisələrindən biri . Azərbaycan Bəstəkarlar İttifaqının 75 illiyi. “Konservatoriya “ jurnalı N6, 2009.

2. Əliyusif Əlizadə haqqında kitabında məqalə. 2010.

3. Əziz Əzizli haqqında “Xatirələr” kitabında məqalə. 2011.

4. Azərbaycan baletinin təkamül və inkişaf mərhələləri. “Konservatoriya jurnalı” N4, 2013

5. Aşıq musiqisi və muğam . “Konservatoriya jurnalı” N4, 2015.

## Proqramlar, metodik tövsiyələr dərs vəsaitləri və dərslik

1. “Tar ilə simfonik orkestr üçün Konsert”in ifa xüsusiyyətləri. Metodik tövsiyə. Bakı, 2009.

2. “Tar ilə simfonik oskestr üçün işlənmiş konsert” (klavir). Dərs vəsaiti. Bakı, 2010.

3. "Musiqi əsərlərinin Azərbaycan  Xalq Çalğı alətlərinin simfonik orkestrləşdirilməsi". Metodik tövsiyə. Bakı, 2013.

4. Milli Konservatoriya üçün çoxlu sayda proqramlar. 2010-cu il.

5. Kamança və fortepiano üçün işlənmiş konsert. Bakı, 2014-cü il.

6. "Alətşünaslıq". Dərslik. Bakı, 2015.

7.  "Simfonik Orkestr Alətlərinin Orkestrləşdirilməsi" fənni bakalavr dərəcəsi alan tələbələr üçün proqram. Bakı, 2016, 15 səh.

8. "Simfonik Orkestr Alətləri və Orkestr" fənni magistr dərəcəsi alan tələbələr üçün proqram. Bakı, 2016, 15 səh.

9. "Alətşünaslıq". Dirijorluq kafedrasının dirijorluq ixtisasında bakalavr dərəcəsi alan tələbələr üçün proqram. Bakı 2016, 19 səh.

10. "Alətşünaslıq". Dirijorluq kafedrasının bəstəkarlıq ixtisasında bakalavr dərəcəsi alan tələbələr üçün proqram. Bakı, 2016, 19 səh.

11.Qələbəyə doğru "İki marş". Metodik vəsait. Bakı, 2017, 56 səh.

## Məmmədağa Umudov haqqında məqalələr


1. Xalıqzadə F. Müdrikliyin başlanğıcında. "Musiqi dünyası" jurnalı № 1, 1999, səh. 118-120.

2. Həsənova L. Tar ilə simfonik orkestr üçün konsertlərin yaranma və inkişaf tarixinə bir nəzər. "Musiqi dünyası" jurnalı № 1-2, 2008, səh.116-119.

3. 2014-cü il may ayının 14-də Azərbaycan Dövlət Radiosunda musiqişünas Səadət Təhmirazqızının Məmmədağa Umudovla müsahibəsi.

4. "Həmişə ideal sandığım bizim xalq musiqimiz olub". "Qobustan" jurnalı №1/2015.

5. Гасанова Л. «Стилистические особенности концерта для тара и симфонического оркестра М.Умудова». «Harmony» jurnalı.

6. Qulamova J.E. Yaddaşlara həkk olunan anlar. "Mədəniyyət" qəzeti, Bakı, 2018.



Məmmədağa Umudov
müəllimi
Kamil Əhmədovla dərs zamanı



Məmmədağa Umudov,
Arif Məlikov və maestro
Niyazi ilə



(Soldan) Məmmədağa Umudov, Arif Mirzəyev, Rauf Hacıyev,
Boris Yermoloyev, Ramiz Mustafayev, Nəriman Məmmədov,
Tofiq Bakıxanov, Həsən Adigözəlzadə



Soldan Ə.Əzizli, R.Mirişli, M.Umudov



Alim Qasımov və Məmmədağa Umudov



Məmmədağa Umudov və qızları - şahmat üzrə Beynəlxalq hakim, əməkdar məşqçi Ülkər Umudova və qadınlardan ibarət milli yığma komandanın üzvü beynəlxalq qrosmeyster Nərgiz Umudova ilə



Məmmədağa Umudov
və
Vasif Adıgözəlov



Soldan: bəstəkar
Məmmədağa Umudov,
maestro Rauf Abdullayev və
solist Cəmilə Qarayusifli




Tofiq Bakıxanov və
Məmmədağa Umudov
(Əmircanda)



Ramiz Quliyev və
Məmmədağa Umudov



Soldan dirijor Ağaverdi Paşayev,
violinist Cihat Aşkın (Türkiyə)




Məmmədağa Umudovun çap olunmuş əsərləri



Məmmədağa Umudov və Xalq rəssamı Qəyyur Yunus


Dostları Eldar Mansurov və Rafiq İsmayılov ilə


Məmmədağa Umudov ailəsi ilə

## Kitabın içindəkilər:

Məmmədağa Umudovun yaradıcılıq yolu....................3
Tar ilə simfonik orkestr  üçün "Konsert".....................11
Məmmədağa Umudovun pedaqoji fəaliyyəti.............16
Bəstəkar Məmmədağa Umudovun əsərlərinin
siyahısı...........................................................................19
Məmmədağa Umudovun məqalə və
dərs vəsaitləri.................................................................22
Proqramlar, metodik tövsiyələr, dərs
vəsaitləri və dərslik.........................................................22
Məmmədağa Umudov haqqında məqalələr................24

Jalə Qulamova

# Məmmədağa Umudov


Redaktor:
**Səkinə Səmədova**

Texniki redaktor:
**Ellada Səfərəliyeva**

Çapa imzalanıb: 06.05.2019
Formatı: 70x100 1/32
Fiziki çap vərəqi: 1 ç.v.
Tiraj: 500

Kitab «Renessans-A» Nəşriyyat Evi tərəfindən nəşrə hazırlanmış və hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.